# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

# AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR XİDMƏTİ GÖSTƏRƏN ŞƏXSLƏR TƏRƏFİNDƏN CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASINA DAİR QANUNVERİCİLİYƏ RİAYƏT EDİLMƏSİNİN MONİTORİNQİNİN APARILMASI BARƏDƏ QAYDALAR

*(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/3 nömrəli qərarı ilə təsdiq edilmişdir)*


***Tərtib edənlər:***

*Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi* — *Elnur İbrahimov*

*Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin baş mütəxəssisi* — *Nigar Alxaszadə*



**Bakı - 2024-cü il**

## MÜNDƏRİCAT

**GİRİŞ.........................................................................................................................3-4**

**BÖLMƏ I. ÜMUMİ MÜDDƏALAR**

FƏSİL1. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN PREDMETİ VƏ VƏZİFƏLƏRİ...........................................................................5-10

**BÖLMƏ II. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİ PROSEDURLARI**

FƏSİL 2. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN TƏŞKİLİ.............................................................................................10-13

FƏSİL 3. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN KEÇİRİLMƏSİ PROQRAMI.............................................................................14-15

FƏSİL 4. MONİTORİNQ ZAMANI KONFİDENSİALLIĞIN TƏMİN EDİLMƏSİ.........................................................................................................15

FƏSİL 5. MÜFƏTTİŞLƏR QRUPUNUN VƏ İDARƏNİN MONİTORİNQ SƏNƏDLƏRİ.........15-16

FƏSİL 6. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ...................................................16

FƏSİL 7. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN NƏTİCƏLƏRİNİN RƏSMİLƏŞDİRİLMƏSİ VƏ ELAN OLUNMASI.......................16-18

**BÖLMƏ III. YEKUN MÜDDƏALAR**

FƏSİL 8. QAYDALARA ƏLAVƏLƏR VƏ DÜZƏLİŞLƏRİN EDİLMƏSİ..................................18

## Giriş

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu (bundan sonra - ƏL/TMM haqqında Qanun) uyğun olaraq, ƏL/TMM-in aşkar edilməsi, qarşısının alınması və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə olunma imkanlarını istisna edən şəraitin yaradılması, bu istiqamətdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, habelə dövlətin və cəmiyyətin maraqlarının qorunması məqsədilə effektiv ölkədaxili və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir. Eyni zamanda “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir. ƏL/TMM haqqında Qanunun 16.1.6 bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Auditorlar Palatasının auditor xidməti göstərən şəxslərə münasibətdə ƏL/TMM-ə qarşı nəzarət orqanı funksiyasını həyata keçirir. ƏL/TMM haqqında, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunları (bundan sonra – Qanunlar) və digər normativ sənədlər ƏL/TMM ilə bağlı hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması üçün hüquqi mexanizmin yaradılmasına, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədi ilə maliyyə sistemindən istifadə olunması imkanlarını istisna edən şəraitin yaradılmasına, bu sahədə dövlətin və cəmiyyətin maraqlarının qorunmasına yönəlmişdir.

Qanunlar və digər normativ sənədlərdən irəli gələrək tərtib edilən “Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə” Qaydalarda (bundan sonra – “Qaydalar”) Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən Qanunlar və digər normativ sənədlərin tələblərinə riayət edilməsinin təmin edilməsi nəzərdə tutulmuşdur. Həmçinin, ƏL/TMM sahəsində qanunvericiliyin pozulması ilə əlaqədar hüquqpozmalara görə məsuliyyətə cəlb etməklə deyil, habelə hüquqpozmalara şərait yaradan halların müəyyən edilməsi, təhlili, aradan qaldırılması və qabaqlayıcı tədbirlərin görülməsini müəyyən edir.

Qaydaların hazırlanması, tətbiqi və Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslərin Qanunlar və digər normativ sənədlərin tələblərinə riayət edilməsinin monitorinqi yeni bir sahə növüdür.

Bu Qaydalara əsasən nəzarət orqanı tərəfindən Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslərin Qanunlar və digər normativ sənədlərin tələblərinə riayət edilməsinin monitorinqi həyata keçirilir.

Qaydalar - monitorinq aparan və auditor xidməti göstərən şəxslərin hüquq və öhdəliklərini, monitorinq aparan şəxslər tərəfindən nəzarət tədbirlərini formalaşdırılmasını, nəzarət tədbirlərinin formalaşdırılması zamanı yarana biləcək risk amillərinin nəzərə alınmasını, monitorinqin keçirilməsi üçün Plan-qrafikin hazırlanmasını, nəzarət orqanı tərəfindən auditor xidməti göstərən şəxslərin əvvəlcədən monitorinqlə bağlı məlumatlandırılmasını, monitorinq aparan şəxslər tərəfindən monitorinq zamanı konfidensiallığa riayət edilməsini və monitorinq sənədlərinin qiymətləndirilməsini, aktlaşdırılmasını, Palataya təqdim edilməsini, zərurət yarandığı zaman yenidən monitorinq keçirilməsini, monitorinq sənədlərinin qorunub saxlanılması və nəticələrinin elan edilməsini tənzimləyir.

İstifadə olunmuş ədəbiyyatlar:


1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu;
2. “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu;
3. “Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar”ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin 2023-cü il 21 fevral tarixli 3-21-28/3-6-4/2023 nömrəli Qərarı;
4. “Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin 2023-cü il 21 fevral tarixli 3-21-28/3-6-6/2023 nömrəli Qərarı;
5. “Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası”nın, maliyyə institutlarının Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə məlumat və sənədlər təqdim etməli olduqları nağd şəkildə həyata keçirilən əməliyyatların və maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatlarının məbləğinin minimum həddinin, habelə əməliyyatları icra etmədən məlumat və sənədlər təqdim etməli olduqları əməliyyatların məbləğinin minimum həddinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin 2023-cü il 27 aprel tarixli 3-21-28/3-6-8/2023 nömrəli Qərarı;
6. “Yüksək riskli zonaların müəyyən edilmə əsasları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 02 oktyabr tarixli 350 nömrəli Qərarı;
7. “Qeyri-maliyyə institutları və peşə sahibləri üzrə sahəvi risklərin qiymətləndirilməsinə dair” Metodologiya.

# BÖLMƏ I. ÜMUMİ MÜDDƏALAR

## FƏSİL1. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN PREDMETİ VƏ VƏZİFƏLƏRİ

1.1. “Cinayət yolu ilə əldə əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə riayət olunmasının monitorinqi Qaydaları (bundan sonra Qaydalar) “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanununun (bundan sonra Qanunlar) və digər normativ sənədlərin tələblərinə əsasən hazırlanmışdır.

1.2. Bu Qaydalar auditor xidmətində Qanunların və digər normativ sənədlərin icrasının zəruri olduğu prosedurları müəyyən edir.

1.3. Bu Qaydaların məqsədi auditor xidməti göstərən şəxslərdə Qanunların və digər normativ sənədlərin tələblərinə riayət edilməsinin uyğunluğunun təmin edilməsidir.

1.4. Nəzarət tədbirləri zamanı İdarə və müfəttişlər qrupu auditor xidməti göstərən şəxslər tərəfindən təqdim olunmuş məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görür, məlumatların məxfiliyini və yalnız Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadəsini təmin edir.

1.5. Bu Qaydalar ƏL/TMM ilə bağlı hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması üçün hüquqi mexanizmin yaradılmasına, ƏL/TMM istiqamətində auditor xidməti göstərən şəxslərin istifadə olunması imkanlarını istisna edən şəraitin yaradılmasına, bu sahədə dövlətin və cəmiyyətin maraqlarının qorunmasına yönəlmişdir.

1.6. Bu Qaydaların müddəaları yalnız ƏL/TMM sahəsində qanunvericiliyin pozulmasına görə məsuliyyətə cəlb etməklə deyil, belə hüquqpozmalara şərait yaradan halların müəyyən edilməsi, təhlili, aradan qaldırılması üzrə qabaqlayıcı tədbirlər vasitəsilə həyata keçirilir.

1.7. Auditorlar Palatasının konkret sahəsini tənzimləyən normativ sənədləri ilə bu Qaydalarda nəzərdə tutulmuş müddəaları tamamlayan müddəalar müəyyən oluna bilər.

1.8. Bu Qaydalarda verilmiş terminlər onlara aid olan aşağıdakı mənaları daşıyır:

1.8.1. **auditor xidməti göstərən şəxslər** – “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş auditor xidməti göstərmək hüququnu əldə etmiş şəxslər;

1.8.2. **auditor xidməti sahəsində ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin məqsədi** – auditor xidməti göstərən şəxslər tərəfindən Qanunun və digər normativ sənədlərin tələblərinə riayət edilməsinin yoxlanılması;

1.8.3. **cinayət yolu ilə əldə edilmiş əmlak -** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilmiş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı yolla əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz, maddi və ya qeyri-maddi

əmlak nemətləri, o cümlədən virtual aktivlər və əmlaka mülkiyyət hüquqlarını və maraqlarını təsdiq edən hüquqi alətlər və sənədlər;

1.8.4. **cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması** – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulmuş cinayət;

1.8.5. **cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə tələblərə riayət edilməsi (bundan sonra – leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət) –** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində hüquqi aktların tələblərinə riayət edilməsi;

1.8.6. **eyniləşdirmə** - şəxsiyyətin, hüquq qabiliyyətinin, təmsilçilik səlahiyyətinin və işgüzar fəaliyyətin müəyyən edilməsi məqsədi ilə həyata keçirilən tədbirlərin məcmusu;

1.8.7. **əhəmiyyətli nöqsan** – Qanunla müəyyən edilmiş hallarda əhəmiyyət kəsb edən nöqsanlar;

1.8.8. **İdarə** - Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin əmri ilə bu işlərin görülməsi həvalə edilmiş müvafiq struktur bölmə. İdarə Palatanı təmsil edir;

1.8.9. **maliyyə monitorinqi orqanı** – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən, fəaliyyəti əlaqələndirən, habelə bu sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan - Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (bundan sonra - MMX);

1.8.10. **məlumat və sənədlər** - yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq auditor xidməti göstərən şəxslərin nəzarət orqanının, habelə digər dövlət orqanlarının (qurumların) fəaliyyəti nəticəsində əməliyyatlar (əqdlər) (bundan sonra – əməliyyatlar) və (və ya) işgüzar münasibətlər barədə yaranan, saxlanılan və ya qeydə alınan faktlar, rəylər, xəbərlər və ya digər xarakterli məlumatlar, kağız və ya elektron formada sənədlər. Bu anlayış, eyni zamanda, müxtəlif məlumat bazalarında yaradılan, saxlanılan, qeydə alınan, habelə internet və ya digər informasiya ehtiyatlarında toplanan faktları, xəbərləri və ya digər xarakterli məlumatları və ya sənədləri də əhatə edir;

1.8.11. **monitorinq** – mənbəyi məlum olan məlumatlar və sənədlər əsasında İdarə və müfəttişlər qrupu tərəfindən həyata keçirilən planlaşdırılmış, plandankənar və təkrar araşdırma tədbirləri;

1.8.12. **müfəttiş** – Palata sədrinin sərəncamına uyğun olaraq Auditor təşkilatları və sərbəst auditorlardan seçilmiş ƏL/TMM üzrə monitorinqləri həyata keçirən auditor;

1.8.13. **müfəttişlər qrupu** – Palata sədrinin sərəncamına uyğun olaraq təyin edilən ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqini həyata keçirən müfəttişlərdən ibarət olan qrup;

1.8.14. **müştəri profili -** auditor xidməti göstərən şəxslərin ƏL/TMM qanunvericiliyinə riayət olunmasına dair hər bir müştəri üzrə tərtib etdikləri sənədlər və əldə etdikləri sübutlar toplusu;

1.8.15. **nəzarət orqanı** – ƏL/TMM haqqında Qanunun 16.1.6-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən Qanunların və digər normativ sənədlərin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən orqan (qurum) - Azərbaycan Respublikasının Auditorlar Palatası;

1.8.16. **nəzarət tədbirləri** – İdarə, müfəttişlər qrupu və maliyyə monitorinqi orqanı tərəfindən auditor xidməti göstərən şəxslərə tətbiq edilən bütün növ monitorinq tədbirləri, o cümlədən nəzarət, araşdırma, müşahidə, təftiş, baxış və digər oxşar tədbirlər;

1.8.17. **Palata** – Azərbaycan Respublikasının Auditorlar Palatası;

1.8.18. **planlaşdırılmış monitorinq**– auditor xidməti göstərən şəxslər tərəfindən ƏL/TMM qanunvericiliyinə riayət olunmasının Şura tərəfindən təsdiq olunmuş plan-qrafik əsasında monitorinqi;

1.8.19. **plandankənar monitorinq** –bu Qaydaların 1.16-cı maddəsində nəzərdə tutulmuş hallarda keçirilən monitorinq;

1.8.20. **Plan-qrafik** - hər il üçün Azərbaycan Respublikasının Auditorlar Palatası Şurası tərəfindən təsdiq edilən “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə Plan-qrafik”. “Plan-qafik” Azərbaycan Respublikasının Auditorlar Palatasının rəsmi internet səhifəsində dərc edilir;

1.8.21. **Şura** – Azərbaycan Respublikasının Auditorlar Palatasının Şurası;

1.8.22. **terrorçuluğun maliyyələşdirilməsi** – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci maddəsində nəzərdə tutulmuş cinayət;

1.8.23. **təkrar monitorinq** – bu Qaydaların 1.17-ci maddəsində nəzərdə tutulmuş hallarda keçirilən monitorinq.

1.8.24. **Tələbnamə** - monitorinq zamanı zəruri olan əlavə sənədlərin (məlumatların) təqdim edilməsini nəzərdə tutan sənəd (əlavə 2)

1.8.25. **verifikasiya** - əldə edilmiş eyniləşdirmə məlumatlarının həqiqiliyinin müəyyən edilməsi məqsədi ilə həyata keçirilən tədbirlərin məcmusu.

1.9. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi aşağıdakı formalarda aparıla bilər:

1.9.1. **Əyani monitorinq** – Müfəttişlər qrupu tərəfindən auditor xidməti göstərən şəxslərin birbaşa ofisində aidiyyəti ilkin sənədlər əsasında aparılan monitorinq;

1.9.2. **Qiyabi monitorinq** – İdarə tərəfindən müasir texniki rabitə vasitələri ilə (telefon, internet, skayp, video konfrans və sairə), həmçinin sənədlərin sorğu edilməsi yolu ilə aparılır.

1.10. Planlaşdırılmış ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi Şura tərəfindən təsdiq olunmuş illik plan-qrafik əsasında aparılır.

1.11. Planlaşdırılmış əyani monitorinqin müddəti 20 (iyirmi) iş günündən artıq olmamalıdır. İdarə tərəfindən auditor xidməti göstərən şəxslərə planlaşdırılmış əyani monitorinqin başlanmasının məlumatlandırılması bu Qaydaların 2-ci bölməsinin müddəalarına əsasən aparılır.

1.12. İdarəyə təqdim edilmiş ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi üzrə nəticələrin qiymətləndirilməsi müddəti 15 (on beş) iş günü ərzində həyata keçirilir.

1.13. Plandankənar əyani monitorinq auditor xidməti göstərən şəxslərə əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilir. Bu monitorinqin keçirilməsi haqqında qərar auditor xidməti göstərən şəxslərə monitorinqin başlandığı an təqdim olunur.

1.14. Plandankənarkənar əyani monitorinqin keçirilməsi barədə müvafiq qərar bu Qaydanın 1.16.1-ci maddəsinə əsasən Palata sədri tərəfindən qəbul olunur.

1.15. Plandankənarkənar əyani monitorinqin müddəti 20 (iyirmi) iş günündən artıq olmamalıdır.

1.16. Plandankənar ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi aşağıdakı hallarda keçirilir:

1.16.1. nəzarət orqanına Qanunun tələblərinin pozulması faktları haqqında mənbəyi bəlli olan məlumat və ya şikayət daxil olduqda,

1.16.2. sonuncu monitorinq nəticəsində aşkar edilmiş pozuntuların və ya onların nəticələrinin müəyyən edilmiş müddət ərzində aradan qaldırılmasına dair məlumat və sənədlər auditor xidməti göstərən şəxslər tərəfindən İdarəyə təqdim edilmədikdə və ya verilmiş məlumatın yanlış olduğu müəyyən edildikdə və ya bunun üçün şübhələr olduqda.

1.17. Təkrar monitorinq auditor xidməti göstərən şəxslərin planlaşdırılmış monitorinqin nəticəsi ilə razılaşmadıqları zaman müraciətlərinə əsasən İdarə rəisi tərəfindən təyin olunur.

1.18. Təkrar monitorinqin aparılma vaxtı bu barədə qəbul olunmuş qərarla müəyyən edilir.

1.19. Dayandırılmış (təxirə salınmış) əyani monitorinqin bərpa edilməsi haqqında qərar 4 nömrəli əlavə ilə qəbul edilməlidir.

1.20. Auditor xidməti göstərən şəxslər monitorinqin dayandırılması (təxirə salınması) və dayandırılmış (təxirə salınmış) əyani monitorinqin bərpa edilməsi haqqında qərarla tanış edilməlidir.

1.21. Əyani monitorinqin dayandırılması (təxirə salınması) müddəti monitorinqin ümumi müddətinə daxil edilmir.

1.22. Zərurət yarandığı hallarda, İdarə rəisinin qərarına əsasən monitorinqin keçirilməsi barədə qərar ləğv edilə və ya qərarda dəyişikliklər edilə bilər.

1.23. Monitorinq başlamazdan əvvəl müfəttişlər monitorinqin aparılması haqqında qərarın surətini auditor xidməti göstərən şəxslərə təqdim edir, monitorinqin hüquqi əsasları, predmeti, müddəti, monitorinq zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat verir.

1.24. Müfəttişlər qrupu əyani monitorinq zamanı Tələbnaməyə əsasən auditor xidməti göstərən şəxslərdən əlavə zəruri sənədləri tələb edə bilər. Sənədlərin tələb olunma müddəti monitorinqin ümumi müddətinə daxil edilmir.

1.25. Tələbnamə iki nüsxədə tərtib olunur. İdarə tərəfindən tələbnamənin bir nüsxəsi auditor xidməti göstərən şəxslərə təqdim olunur. İkinci nüsxəni isə auditor xidməti göstərən şəxslər soyadını, adını, atasının adını və tələbnamənin alındığı tarixi qeyd edərək imzalayır və İdarəyə təqdim edir.

1.26. Tələbnamə üzrə məlumatlar (sənədlər) vaxtında təqdim edilmədikdə, natamam və və ya

yanlış məlumatlar verildikdə və ya məlumatlar (sənədlər) təqdim olunmadıqda bu barədə akt tərtib olunur, həmin akt müfəttişlər qrupu və auditor xidməti göstərən şəxslər tərəfindən imzalanır. Aktın surəti auditor xidməti göstərən şəxslərə təqdim olunur. Akt auditor xidməti göstərən şəxslər tərəfindən imzalanmadıqda və yaxud onun qəbul olunmasından imtina edildikdə, aktda bu barədə müvafiq qeydlər edilməklə, onun surəti müvafiq qaydada auditor xidməti göstərən şəxslərə rəsmi təqdimetmə qaydasında və ya bildirişli poçt vasitəsilə göndərilir. Akt auditor xidməti göstərən şəxslər tərəfindən imzalanmadıqda və yaxud onun qəbul olunmasından imtina edildikdə əyani monitorinqi həyata keçirən müfəttişlər qrupu tərəfindən sənədlərin götürülməsi istiqamətində zəruri tədbirləri həyata keçirilir.

1.27. Əyani monitorinq zamanı aşkar olunan pozuntu faktlarını təsdiq edən sənədlər İdarənin qərarına əsasən götürülür (5 nömrəli əlavə). Sənədlərin götürülməsi barədə protokol (6 nömrəli əlavə) tərtib edilir. Auditor xidməti göstərən şəxslər tərəfindən İdarənin sənədlərin götürülməsi qərarı üzrə  məlumatlar (sənədlər) vaxtında təqdim edilmədikdə, natamam və və ya yanlış məlumatlar verildikdə və ya məlumatlar (sənədlər) təqdim olunmadıqda, bu barədə imtina aktı (7 nömrəli əlavə) tərtib edilir. Protokol və ya imtina aktı müfəttişlər qrupu və auditor xidməti göstərən şəxslər tərəfindən imzalanır. Protokolun və aktın surəti auditor xidməti göstərən şəxslərə təqdim edilir və yaxud müvafiq qaydada göndərilir.

1.28. Bu Qaydaların 1.28-ci və 1.29-ci bəndlərində göstərilən tədbirlərin həyata keçiriləndən sonra auditor xidməti göstərən şəxslər tərəfindən sənədlərin verilmədiyi halda həmin sənədlərin gütürülməsi əyani monitorinqi bilavasitə həyata keçirən İdarənin və müfəttişlər qrupunun əsaslandırılmış müraciətinə əsasən məhkəmənin qərarı ilə həyata keçirilir.

1.29. Monitorinq təqdim olunmuş məlumatların (sənədlər) əsli əsasında aparılır. Sənədlərin təqdim olunmuş əsli müfəttişlər qrupu tərəfindən əyani monitorinq zamanı və ya əyani monitorinq bitdikdən sonra əyani monitorinq aktının nüsxəsi ilə birlikdə auditor xidməti göstərən şəxslərə qaytarılmalıdır.

1.30. Auditor xidməti göstərən şəxslər tərəfindən təqdim edilmiş sənədlərin surəti İdarə və müfəttişlər qrupu tərəfindən qaytanlanır (tikilir), “əsli ilə düzdür” ifadəsi və tarix qeyd olunur, imzalanır, möhürlənir və İdarədə monitorinq sübutu kimi saxlanılır.

1.31. İdarə nəzarət tədbirlərinin həyata keçirilməsi çərçivəsində dövlət və yerli özünüidarəetmə orqanlarına, üçüncü şəxlərə, habelə auditor xidməti göstərən şəxslərə sorğularla müraciət edə və həmin şəxslərdən tələb olunan sənədləri əldə edə bilər.

1.32. Əyani monitorinq zamanı auditor xidməti göstərən şəxslərdən əlavə izahat almaq, mümkün fikir ayrılığını aradan qaldırmaq və monitorinqin ilkin nəticələrini müzakirə etmək məqsədi ilə  auditor xidməti göstərən şəxslər  ilə müzakirələr keçirilə bilər.

1.33. Əyani monitorinq zamanı auditor xidməti göstərən tərəfindən Qanunun 11.2-11.4-cü maddələrinin tələblərinə vaxtında və tam riayət edilməsi , habelə nəzarət orqanına (o cümlədən MMX-a) təqdim olunmuş məlumatların (o cümlədən sorğu cədvəli) düzgünlüyü nəzarət orqanı tərəfindən ilkin sənədlər əsasında yoxlanılmalı və qanunamüvafiq tədbirlər görülməlidir.

1.34. Əyani monitorinq auditor xidməti göstərən şəxslərin iş günü və iş vaxtı ərzində onun yerləşdiyi və ya faktiki fəaliyyət göstərdiyi ünvanda keçirilir. Nəzarət tədbiri auditor xidməti göstərən şəxslərin normal iş rejimini pozmamalıdır.

# II. BÖLMƏ
# ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİ PROSEDURLARI

## FƏSİL 2. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN TƏŞKİLİ

2.1. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi İdarə və müfəttişlər qrupu tərəfindən həyata keçirilir.

2.2. İdarə:

2.2.1. Auditor xidməti göstərən şəxslərin ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin keçirilməsi üçün müfəttişlər qrupunun üzvlərinin təyin edilməsi barədə təklif hazırlayır və Palata sədrinə təqdim edir;

2.2.2. Auditor xidməti göstərən şəxslərdə ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi barədə plan – qrafik layihəsini tərtib edərək təsdiq edilməsi üçün Şuraya təqdim edir;

2.2.3. Auditor xidməti göstərən şəxsləri bu Qaydaların 2.21 və 2.22-ci maddələrinə əsasən risk qruplarına bölünməsini təmin edir;

2.2.4. Hər bir monitorinq olunan auditor xidməti göstərən şəxslər üzrə ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin keçirilmə müddətini müəyyən edir;

2.2.5. Auditor xidməti göstərən şəxslərin ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi Qaydaları ilə, Qanunvericilik və digər sənədlərlə tanış olması, məlumat və sənədlərin formalarının MMX-a təqdim edilməsi üçün köməklik edilməsi, monitorinqin aparılması və monitorinqin hesabatının saxlanmasının təminatını həyata keçirir;

2.2.6. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi üzrə bildirişlərin göndərilməsini, nəzarət üçün tələb olunan sənədlərin qəbulunu, emalını, sistemləşdirilməsini və digər təşkilati məsələlərin icrasını təmin edir. Hər bir auditor xidməti göstərən şəxs üzrə ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin aparılmasını təmin edir;

2.2.7. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi planının formalaşdırılmasında risk amillərini də nəzərə alır;

2.2.8. Auditor xidməti göstərən şəxslər və müfəttişlər qrupunun üzvləri arasında maraqların toqquşması və ya ziddiyyətlərin olmamasını təmin edir;

2.2.9. Müfəttişlərin təlimatlandırılması və ixtisasartırmasını təşkil edir;

2.2.10. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üçün zəruri olan iş sənədlərinin formasını müəyyən edir;
2.2.11. Şikayət olunan monitorinqlərin nəticələri müzakirə edərək müvafiq qərar qəbul edir;
2.2.12. Auditor xidməti göstərən şəxslər və müfəttişlər qrupu arasında ortaya çıxan ziddiyyətlər barədə auditor xidməti göstərən şəxslərin ərizələrinə baxır və ziddiyyətlərin aradan qaldırılması üçün Palata sədrinə müvafiq təkliflər hazırlayıb təqdim edir;
2.2.13. Palata sədri qarşısında müfəttişlər qrupunun və İdarənin işində aktiv iştirak edən üzvlərinin mükafatlandırılması barədə vəsatət qaldıra bilər.
2.3. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi dövri və risk yönümlü yanaşma prinsipləri əsasında ən azı üç ildən bir planlaşdırılmış monitorinq qaydasında həyata keçirilir.
2.4. Risk amillərinin təsiri nəticəsində plan-qrafik layihəsi üzrə planlaşdırılmış tarixdən daha tez zamanda monitorinqin aparılması müəyyən edilə bilər.
2.5. Planlaşdırılmış monitorinq auditor xidməti göstərən şəxslərin öz fəaliyyətlərini dayandırdıqları halda, onların monitorinqi fəaliyyətlərinin bərpa edilməsi üçün müraciət etdikləri zaman aparılır.
2.6. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının planlaşdırılmış monitorinqi Palatanın vəsaiti hesabına keçirilir.
2.7. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi barədə plan-qrafik layihəsi auditor xidməti göstərən şəxslər üçün açıq və əlçatan olur.
2.8. İdarə, müfəttişləri yalnız auditor xidməti göstərən şəxslərdən təyin edilməsi barədə təklif verə bilər. O, müfəttişlər qrupunun işini təşkil edir, ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin keçirilməsinə nəzarət edir, auditor xidməti göstərən şəxslər ilə müfəttişlər qrupunun işinin yekunlarını müzakirə edir və onların nəticələrinə əsasən hesabat tərtib edir.
2.9. Müfəttişlər qrupuna İdarə tərəfindən 15-dən çox və 5-dən az olmamaq şərti ilə müfəttişlər təyin edilir.
2.10. Müfəttiş aşağıdakı hallarda ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqində iştirak edə bilməz:
2.10.1. Monitorinq olunan auditor xidməti göstərən şəxslərin işçisi olduqda və ya son üç il ərzində orada işlədikdə;
2.10.2. Monitorinq olunan auditor xidməti göstərən şəxslərin audit və ya digər işində son üç il ərzində iştirak etmiş olduqda;
2.10.3. Monitorinq olunan auditor xidməti göstərən şəxslər ilə əlaqədə aidiyyatı şəxs olduqda;
2.10.4. Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.
2.11. Müfəttişlər qrupunun üzvlərinə aşağıdakılar qadağandır:
2.11.1. Bu Qaydaların 4.3-cü maddəsində nəzərdə tutulan hallar;
2.11.2. Qaydalarda nəzərdə tutulmuş hallarda monitorinq olunan müştəri profilinə baxış imkanı əldə etmiş Auditorlar Palatasının vəzifə borclarını yerinə yetirmələri üçün informasiyalardan və sənədlərdən istifadə etmək məcburiyyətində olan rəhbərləri və

əməkdaşları istisna olmaqla üçüncü şəxslərə açıqlamaq və onlarla müzakirə etmək.

2.12. İdarə ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi barəsində monitorinqə ən azı 10 gün qalmış auditor xidməti göstərən şəxsləri yazılı şəkildə məlumatlandırır. Məlumatlandırma müasir texnoloji rabitə vasitələri ilə, o cümlədən elektron poçt vasitəsilə də aparıla bilər.

2.13. Fəaliyyəti monitorinq olunan auditor xidməti göstərən şəxslər monitorinqə 1 (bir) həftə qalmış İdarəni monitorinq dövrünü əhatə edən müddət ərzində ƏL/TMM Qanunun maddələrinə və ƏL/TMM qanunvericiliyinin digər tələblərinə uyğun olaraq bu Qaydaların 3.4-cü maddəsinin tələblərinə əməl edilməsinin siyahısı ilə təmin edir.

2.14. Müfəttişlər qrupu auditor xidməti göstərən şəxslər tərəfindən bu Qaydaların 3.4-cü maddəsinin tələblərinə əməl edilməsinə nəzarət edir.

2.15. ƏL/TMM sahəsində nəzarət tədbirlərinin effektiv şəkildə həyata keçirilməsi məqsədi ilə auditor xidməti göstərən şəxslərə bu Qaydaların 3.4-cü maddəsinə əsasən əsas prinsiplərə riayət oluması izah edilməlidir.

2.16. Ehtiyac yarandığı halda auditor xidməti göstərən şəxslər müfəttişlər qrupu və İdarəyə ortaya çıxan suallar barədə geniş izahat və şərhlər verməlidir.

2.17. Auditor xidməti göstərən şəxslər tərəfindən ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin aparılmasına maneçilik törədildiyi hallarda (auditor xidməti göstərən şəxslərin ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqindən yayınması və ya İdarə və müfəttişlər qrupunu tələb olunan məlumatlarla təmin etməməsi) İdarə tərəfindən bu faktlar araşdırılır, zəruri tədbirlərin görülməsi və müvafiq qərar qəbul edilməsi məqsədi ilə Palata sədrinə təkliflər verilir.

2.18. Bu Qaydalarda nəzərdə tutulan risklər çərçivəsində müfəttişlər qrupu aşağıdakı məsələlərə riayət olunub-olunmamasını qiymətləndirir:

2.18.1. Auditor xidməti göstərən şəxlər tərəfindən risklərin aşkar edilməsi, qiymətləndirilməsi, idarə edilməsi, müvafiq monitorinq prosedurlarının seçilməsi və planlaşdırılması;

2.18.2. Qanunun və digər normativ sənədlərin icrasının zəruri olduğu prosedurların həyata keçirilməsinin yoxlanılması.

2.19. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi başa çatdıqdan sonra hər bir müştəri profili ayrı-ayrılıqda qiymətləndirilir. Qiymətləndirmə ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinə dair hesabata daxil edilir.

2.20. Planlaşdırılmış əyani monitorinq risk qruplarına uyğun olaraq dövriliklə həyata keçirilir.

2.21. Auditor xidməti göstərən şəxslər tərəfindən təqdim edilmiş sorğu cədvəli İdarə və müfəttişlər qupu tərəfindən təfərrüatlı şəkildə təhlil edilərək risk qruplarının müəyyənləşdirilməsi meyarlarına əsasən qiymətləndirilir və aidiyyəti qrupa şamil edilir.

2.22. Risk meyarları təyin edilərkən "Əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qeyri-maliyyə institutları və peşə sahibləri üzrə sahəvi risklərin qiymətləndirilməsinə dair" Metodologiya sənədinə istinad edilir.

2.23. Auditor xidməti göstərən şəxslərin monitorinq prosesində iştirakı zəruridir.

2.24. Monitorinqin nəticəsi üzrə hesabata dair şikayət olduqda İdarəyə təqdim edilir. İdarə hesabatı qiymətləndirir və nəticəsindən asılı olaraq:

2.24.1. plandankənar və ya təkrar monitorinqin məqsədəuyğunluğu barədə Palata sədrinə təkliflər verir;

2.24.2. intizam tənbehinin tətbiq edilməsi barədə qərar qəbul etmək üçün Palata sədrinə təklif təqdim edir;

2.24.3. arxivdə saxlanılmaq barədə qərar qəbul edir və bu barədə Palata sədrini məlumatlandırır.

2.25. Palata sədri ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin yekunları barədə hesabatın formasını və məzmununu təsdiq edir.

2.26. Cari ilin sonuna qədər İdarə bütün monitorinqlərin nəticələrini icmallaşdırır və növbəti ilin yanvar ayında Palata sədrinə təqdim edir. Hesabat aşağıdakı məlumatları özündə əks etdirir:

2.26.1. Planlaşdırılmış, plandankənar və təkrar monitorinqlərin sayı;

2.26.2. Monitorinq zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqlar;

2.26.3. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi zamanı verilən təklif və tövsiyələr;

2.26.4. Plandankənar monitorinq zamanı aşkar olunan faktlar (pozuntular və çatışmamazlıqlar);

2.26.5. Monitorinqlərin nəticələrinə əsasən tətbiq edilmiş intizam tənbehi haqqında məlumat.

2.27. Monitorinq aparılması dövründə İdarə və müfəttişlər qrupu auditor xidməti göstərən şəxslər ilə fikir mübadiləsi apara bilər.

## FƏSİL 3. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN KEÇİRİLMƏSİ PROQRAMI

3.1. Qanunun və digər normativ sənədlərin icrasının zəruri olduğu prosedураların tətbiq edilməsini dəyərləndirməkdən ibarətdir.

3.2. Nəzarətin keçirilməsi proqramı nəzarət- sorğu anketləri toplusundan ibarətdir.

3.3. Nəzarət sorğu anketləri elə tərtib edilməlidir ki, monitorinqin nəticələrinə dair Qanunun və digər normativ sənədlərin icrasının zəruri olduğu prosedurаların keçirilməsi meyarları üzrə auditor xidməti göstərən şəxslərə kifayət dərəcədə əminlik yaratsın.

3.4. Bu Qaydalar Qanun və digər normativ sənədlərlə uzlaşmalı və auditor xidməti göstərən şəxslər tərəfindən aşağıdakı hallar və əməliyyatlar barədə məlumatların maliyyə monitorinqi orqanına təqdim edilməsinə dair münasibətləri tənzimləməlidir:

3.4.1. əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar;

3.4.2. əmlakın terror aktının hazırlanmasında, təşkil olunmasında və ya törədilməsində, habelə terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə

olunacağı ilə bağlı şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar;

3.4.3. xarici dövlətlərin siyasi nüfuzlu şəxsləri, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslər tərəfindən həyata keçirilən istənilən əməliyyatlar;

3.4.4. "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə əməliyyatlar;

3.4.5. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin bank və digər ödəniş hesabları üzrə əməliyyatlar.

3.5. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi proqramı aşağıdakı məlumatları özündə əks etdirir:

3.5.1. Auditor xidməti göstərən şəxslərdə Qanunun və digər normativ sənədlərin tələblərinə uyğunluğunun monitorinqi;

3.5.2. Auditor xidməti göstərən şəxslərdə ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinə yönəldilmiş digər tədbirlərin qiymətləndirilməsi;

3.5.3. Aparılmış ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi prosedurlarının rəsmiləşdirilməsinin təmin edilməsi;

3.5.4. Zəruri hallarda ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqində aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üzrə əlavə prosedurlarının müəyyən edilməsi;

3.5.5. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin sənədləşdirilməsində vahid formalar tətbiq edilməklə, bütün maraqlı tərəflər üçün anlaşıqlı olmasının təmin edilməsi;

3.5.6. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinə görə qeyri-qənaətbəxş qiymətləndirilmiş auditor xidməti göstərən şəxslərə qarşı inzibati cəza tədbirlərinin tətbiq edilməsi.

3.6. İdarə və müfəttişlər qrupu monitorinqi yalnız ona təqdim edilmiş sənədlər əsasında aparır. İdarə hesabat layihəsini tərtib etdikdən və auditor xidməti göstərən şəxslərə təqdim etdiyi tarixdən 3 gün sonra onlara təqdim edilən sübutlara qiymət verməyə və bu sübutları nəzərə almaya bilərlər.

## FƏSİL 4. MONİTORİNQ ZAMANI KONFİDENSİALLIĞIN TƏMİN EDİLMƏSİ

4.1. Müfəttişlər qrupu tərəfindən aparılan ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi konfidensiallıq prinsiplərinə əməl olunmaqla yerinə yetirilir. İdarə və müfəttişlər qrupu auditor xidməti göstərən şəxslərə aid olan məlumatların konfidensialığını təmin edirlər. Məxfilik prinsipinə əməl etmək auditor xidməti göstərən şəxslər ilə münasibətlərin davam edib - etməməsindən asılı olmayaraq qeyri-məhdud müddətə məcburidir.

4.2. Palata sədrinin əmrinə əsasən Auditorlar Palatası hər bir müfəttiş və İdarənin əməkdaşları ilə məxfilik və müstəqillik prinsiplərinə əməl edilməsinə görə "Konfidensiallıq

Bəyannaməsi”  bağlayır.

4.3. Konfidensiallıq prinsiplərinə əməl olunması məqsədilə monitorinq zamanı müfəttişlər qrupu tərəfindən tərtib olunan monitorinq sənədlərində auditor xidməti göstərən şəxslərin sənədləri məxfi saxlanılmalıdır. Müfəttişlərin monitorinq zamanı lüzumsuz olaraq sənədlərin surətini çıxarması və özündə saxlamasına yol verilmir.

4.4. Bütün monitorinq məlumatlarına müfəttişlər qrupu və İdarə tərəfindən konfidensiallıq təminatı verilir.

4.5. İdarə və müfəttişlər qrupu ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi zamanı əldə olunmuş məlumatlardan yalnız xidməti vəzifələrin icrasi üçün istifadə edir və məlumatların üçüncü şəxslərə bildirilməsi (ötürülməsi) üçün məsuliyyət daşıyırlar.

4.6. Əldə edilmə mənbəyindən asılı olmayaraq maliyyə monitorinqi orqanına təqdim edilən məlumat və sənədlər məxfi və konfidensial saxlanılır, yalnız Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadə edilir və qanunla müəyyən edilmiş sirlərin qorunması rejimi çərçivəsində qorunur.

4.7. Bu Qaydalar qanuna müvafiq olaraq mətbuatda dərc olunan ictimai əhəmiyyətli hesab olunan məlumatlara aid edilmir.

## FƏSİL 5. MÜFƏTTİŞLƏR QRUPUNUN VƏ İDARƏNİN MONİTORİNQ SƏNƏDLƏRİ

5.1. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinə dair monitorinq sənədlərinin forması – sorğu anketləri, qiymətləndirmə cədvəli, hesabat forması və sairə İdarə tərəfindən təsdiq olunur.

5.2. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi dövründə müfəttişlər qrupu tərəfindən sorğu anketləri doldurulur və müfəttişlər qrupu ilə birlikdə İdarə rəisi tərəfindən imzalanır.

5.3. Hər bir sorğu anketində müfəttişlər tərəfindən konkret olaraq “Bəli”, “Xeyr” və ya “Qismən” ifadələri işlədilməlidir. Sorğu anketlərinin “Qeyd” sütununda monitorinq olunan auditor xidməti göstərən şəxslər tərəfindən təqdim edilmiş izahat və ya şərhlərə istinadlar qeyd edilir.

5.4. Müfəttişlər qrupunun monitorinq sənədləri, həmçinin monitorinqə dair auditor xidməti göstərən şəxslər tərəfindən təqdim edilmiş izahat və şərhlər, müfəttişlər qrupunun hesabatı və İdarənin yekun hesabatı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi dosyesinə daxil edilir və İdarənin arxivində saxlanılır.

5.5. Müfəttişlər qrupu bütün tərtib və icra edilmiş monitorinq sənədlərini İdarəyə təhvil verir. Monitorinq sənədlərinin təhvil verilməsi zamanı müfəttişlər qrupu jurnalda  imza etməlidir.

## FƏSİL 6. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

6.1. Monitorinqin nəticələrinin qiymətləndirilməsi üzrə auditor xidməti göstərən şəxslərə aşağıdakı üç uyğunluq reytinqi verilir:

6.1.1. tam tətbiq olunur;

6.1.2. qismən tətbiq olunur;

6.1.3. mövcud deyil.

6.2. Uyğunluq reytinqinə müvafiq olaraq aşağıdakı əmsallar tətbiq edilir:

| Uyğunluq reytinqləri | Risk qiymətləndirilməsi |
|---|---|
| Tam tətbiq olunur | Bəli |
| Qismən tətbiq olunur | Qismən |
| Mövcud deyil | Xeyr |

6.3. Auditor xidməti göstərən şəxslərin sorğu cədvəlinin hər uyğunluq reytinq üzrə toplanmış risk qiymətləndirilməsi üzrə risk meyarı müəyyən edilir.

## FƏSİL 7. ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT OLUNMASININ MONİTORİNQİNİN NƏTİCƏLƏRİNİN SƏNƏDLƏŞDİRİLMƏSİ VƏ ELAN OLUNMASI

7.1. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələri monitorinq keçirilməsi haqqında akt (bundan sonra – akt) ilə rəsmiləşdirilir. Akt asan oxunmalı və aydın olmalı, nəticələri isə obyektiv və dəqiq faktlara əsaslanmalıdır.

7.2. Akt iki nüsxədə hazırlanır, bir nüsxəsi monitorinq başa çatdığı tarixdən növbəti 7 (yeddi) iş günü müddətində auditor xidməti göstərən şəxslərə göndərilir, digər nüsxəsi isə İdarədə saxlanılır.

7.3. Akt nəzarət orqanının icazəsi olmadan açıqlana bilməz Akt ilə yalnız auditor xidməti göstərən şəxslər tanış ola bilər.

7.4. Akt (8 nömrəli əlavə) monitorinqin başa çatdığı gündən ən azı 3 iş günündən gec olmayaraq monitorinqdə iştirak edən müfəttişlər qrupu tərəfindən tərtib edilərək müfəttişlər qrupu və auditor xidməti göstərən şəxslər tərəfindən imzalanır. Aktı imzalamış müfəttişlər qrupu aktda qeyd olunan məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar. Monitorinq zamanı aşkar olunmuş pozuntu faktlarını təsdiq edən sənədlər akta əlavə edilir.

7.5. Akt monitorinqdə iştirak etmiş müfəttişlər qrupu tərəfindən imzalandıqdan sonra onun bir nüsxəsi rəsmi təqdimetmə qaydasında və ya sifarişli poçt vasitəsilə auditor xidməti göstərən şəxslərə imzalanmaq üçün təqdim edilir. Auditor xidməti göstərən şəxslər 3 (üç) iş günü ərzində akt ilə tanış olur və onu imzalayaraq, rəsmi qaydada İdarəyə qaytarır. Bundan sonra aktın ikinci nüsxəsi alınmasını təsdiq edən üsulla auditor xidməti göstərən

şəxslərə göndərilir.

7.6. Aktın auditor xidməti göstərən şəxslər tərəfindən imzalanması auditor xidməti göstərən şəxslərin aktın məzmunu ilə tanış olması faktını təsdiq edir.

7.7. Auditor xidməti göstərən şəxslər aktı imzalamaqdan və (və ya) onu almaqdan və (və ya) qaytarmaqdan imtina etdikdə, bu barədə müfəttişlər qrupu tərəfindən aktda müvafiq qeydlər edilir. Bu halda aktın bir nüsxəsi alınmasını təsdiq edən üsulla monitorinq başa çatdığı tarixdən növbəti 3 (üç) iş günü müddətində auditor xidməti göstərən şəxslərə təqdim olunur və ya bildirişli poçt vasitəsilə göndərilir.

7.8. Monitorinqin nəticəsi üzrə auditor xidməti göstərən şəxslərdə İnzibati Xətalar Məcəlləsinin 598.9-cu və 598.10-cu maddələri ilə müəyyən edilmiş inzibati xəta aşkar edildikdən sonra həmin inzibati xəta ilə bağlı kifayət qədər vaxt tələb edən ekspertizanın və ya digər prosessual hərəkətlərin aparılması zərurəti yarandıqda monitorinq aktı təqdim olunduqdan sonra inzibati araşdırma aparılır.

7.9. İnzibati araşdırmanın başlanması üçün İdarə tərəfindən Qərar qəbul edilir. İnzibati araşdırma prosesində auditor xidməti göstərən şəxslərin izahatlarının, həmçinin onların şəxsiyyətlərini təsdiq edən sənədlərin surətlərinin alınması təmin edilir.

7.10. İnzibati araşdırma başa çatdıqdan sonra inzibati xəta haqqında protokol tərtib edilir və ya inzibati xəta haqqında işin icraatına xitam verilməsi barədə qərar qəbul edilir.

7.11. Əyani monitorinq zamanı auditor xidməti göstərən şəxslərin fəaliyyətində cinayət əlamətləri aşkar edildikdə, toplanmış materiallar aidiyyəti istintaq orqanına göndərilir.

7.12. Monitorinq nəticəsində aşkar olunmuş əhəmiyyətli nöqsan və çatışmazlıqların səbəbi faktlarla əsaslandırılmaqla, həmçinin bu nöqsan və çatışmazlıqların aradan qaldırılmasına dair auditor xidməti göstərən şəxslərin iş planı akta əlavə edilir.

7.13. Əgər monitorinq olunmuş auditor xidməti göstərən şəxslər müfəttişlər qrupu tərəfindən tərtib edilmiş akt ilə narazıdırsa və İdarə rəisi tərəfindən qəbul edilmiş qərar onu qane etmirsə, o halda Palata sədrinə müraciət edərək yenidən müştəri profilinin qiymətləndirilməsini tələb edə bilər.

7.14. Hazırlanmış akt ilə bağlı heç bir şikayət olmadığı təqdirdə akt təqdim edildikdən sonra 10 gün müddətində İdarə monitorinqin yekunlarına dair aktı və qəbul olunmuş qərarı Palata sədrinə təqdim edir. Aktın surəti fəaliyyəti monitorinq olunmuş auditor xidməti göstərən şəxslərə şəxslərə təqdim edilir və qəbul edilmiş qərar son nəticə kimi hesab edilir.

7.15. Auditor xidməti göstərən şəxslərin ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqindən keçməsi barədə məlumat ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinə dair məlumat bazasına daxil edilir.

7.16. ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinin qiymətləndirilməsinə dair məlumat (konfidensial məlumatlar istisna olmaqla) Palatanın internet saytında 1 həftə ərzində yerləşdirilir.

# BÖLMƏ III. YEKUN MÜDDƏALAR

## FƏSİL 8. QAYDALARA ƏLAVƏLƏR VƏ DÜZƏLİŞLƏRİN EDİLMƏSİ

8.1 Bu Qaydalara əlavələr və düzəlişlər Şura tərəfindən qəbul edilən qərarlara əsasən həyata keçirilir.